# Narkomaniya «Ağ ölüm»dür

Narkomaniya müasir dövrümüzdə dünyada geniş yayılmış və bəşəri bəlaya çevrilmişdir. Bu bəla ilə mübarizə aparmaq bir o qədər asan deyil. Hazırda gənclər, hətta qadınlar, məktəb yaşlı yeniyetmələr arasında narkotik maddələrin qəbuluna meyilin artması açıq-aşkar hiss olunmaqdadır. Narkotik maddə alverçiləri əsasən yeniyetmələrin çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə yeniyetmələri ölümə aparan bu pis vərdişə alışdırırlar. Bu vəziyyət sözün əsl mənasında vahimə doğurur.

Həqiqətən bu gün Azərbaycanda bu sosial bəladan yaxasını qurtara bilməyib. Azərbaycanın geopolitik mövqeyi Qərblə Şərqin arasında bir körpü rolu oynaması zaman-zaman narkotik maddələrin qaçaqmalçılığına rəvac verib. Amma Azərbaycan hökumətinin həyata keçirdiyi radikal tədbirlər gözlənilən fəsadların qarşısını almağa nəzərə çarpan dərəcədə kömək etmişdir.

Bəs, nəyə görə müasir dünyamızda narkomaniya bu qədər geniş yayıla bilmişdir? 1960-cı illərdə "gənclik inqilabı" adlanan dövrdə gənc sənət adamları arasında narkotik maddələrin qəbulu dəbə düşmüş, bu, hətta özünəməxsus həyat tərzinə çevrilmişdi. Onlar bunu ictimaiyyətdən gizlətmir, bəzən sənət uğurlarını narkotik maddələrin qəbulu ilə əlaqələndirirdilər. Bu sənətçilərin pərəstişkarları onların həyat tərzini təqlib edərək narkotik maddə qəbul edirlər. Bu nəsildən olan bir çoxları belə məst olmaqla günlərini, həyatlarını başa vururdular. Tanınmış adamların arasında narkomaniyanın qurbanları olmuşdur.

O illərdən xeyli vaxt keçmişdir. Lakin narkomaniya ilə məşğul olanlar insanı ağır problemlərdən xilas etmək əvəzinə, onu daha geniş yaymaqla məşğuldurlar.

Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqlarında, hüquqmühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirmə kampaniyaları daxildir. Bu kampaniyalar kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə aparılır.

Azərbaycan hökuməti isə 2001-ci ildə Avropa İttifaqının maliyyə yardımı ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə xüsusi saziş imzalayaraq narkotik maddələrin dövriyyəsinin, habelə narkomanlığın aradan qaldırılması istiqamətində aparılan reformalara yardım məqsədilə xüsusi proqram hazırlamışdı. Bununla da Cənubi Qafqazın üç ölkəsində proqramın həyata keçirilməsinə xüsusi razılıq əldə edilmişdi. Beləliklə, artıq 15 ilə yaxındır ki, Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı-SKAD Azərbaycanda da uğurla fəaliyyət göstərir. Bu müddət ərzində Azərbaycanın ictimai-siyasi həyatında olduğu kimi proqramın icrasında da bir sıra pozitiv dəyişikliklər baş vermişdir. 1996-cı ildə xalqımızın böyük oğlu ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə yaradılan xüsusi komissiya ölkəmizdə narkotik maddələrin qeyri-qanuni dövriyyəsinin və narkomanlığın qarşısının alınması üçün bütün ali hakimiyyət orqanlarını, dövlət institutlarını bir araya gətirərək koordinasiya işini təşkil etməyə nail olmuşlar.

Son illər Azərbaycan hökuməti bu proqram çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün çox böyük addımlar atmışdır. Narkomaniya ilə əlaqədar Milli Məclisdə bir neçə qanun işlənib hazırlanaraq ölkə başçısı tərəfindən təsdiq edildikdən sonra hazırda icra olunmaqdadır. Bu qanunlar Azərbaycanda narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınmasında, narkotik maddələrdən istifadə etmiş insanların həyata qayıtmasında, onların hüquqlarının müdafiəsi sahəsində xüsusi mexanizmlər yaratmağa imkan vermişdir. İndi hüquq mühafizə orqanlarının, narkomanların reabilitasiyasi ilə məşğul olan səhiyyə təşkilatlarının, dövlət institularının müraciət edəcəyi kifayət qədər hüquqi sənəd mövcuddur.

Son 11 ildə Azərbaycan hökumətinin qazandığı iqtisadi-siyasi uğurlarla yanaşı narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması sahəsində əldə edilən nailiyyətlər beynəlxalq təşkilatlar tərəfindən rəğbətlə qarşılanır. Avropa Şurası Parlament Assambleyası, Avropa Komissiyası, BMT-nin narkotiklərlə və cinayətkarlıqla Mübarizə idarəsi bütün bu təşkilatlar Azərbaycanda aparılan islahatları bəyənmiş və dəstəkləmişdir.

Azərbaycan hökuməti beynəlxalq qurumların, donor təşkilatların dəstəyi və maliyyə yardımı ilə mövcud problemin aradan qaldırılmasında böyük uğurlar qazanıb. Əgər 11 il bundan əvvəl ölkənin hüquq mühafizə orqanları il ərzində qeyri-qanuni dövriyyədən cəmi 1 kiloqramadək narkotik maddə, əsasən də heroin çıxara bilirdisə, hazırda bu rəqəm bir neçə tona çatmışdır. Digər tərəfdən, narkotiklərə aludə olmuş şəxslər əvvəllər cinayətkar kimi qələmə verilirdisə son zamanlar ictimaiyyət artıq başa düşmüşdür ki, narkomaniya əslində bir xəstəlikdir, narkotiklərə düçar olmuş şəxslər sadəcə xəstədirlər, onların müalicəsinə, reabilitasiyasına ciddi yanaşmaq gərəkdir və bu işdə şübhəsiz ki, ictimaiyyət dövlətə yardımçı olmalıdır. Azərbaycanın bu sahədəki siyasəti beynəlxalq standartlara tam cavab verir. Ümumiyyətlə, Azərbaycan hökumətinin vahid, dəyişməz strategiyası isə tezliklə ağ ölümə son qoymağa xidmət edir.

Bir məsələni də xatırladaq ki, Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bəzi sferada oluğu kimi narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında da müəyyən problemlər yaratmışdır. Hələ 2002-ci ildə cənab Prezident İlham Əliyev Avropa Şurasında bu məsələ ilə bağlı konkret fikirlərini açıqlamış, problemin həllində beynəlxalq qurumların fəaliyyətinin gücləndirilməsi zərurətini ortaya qoymuşdur. Bundan sonra bir sıra beynəlxalq qurumlar adıçəkilən problemin həllinə diqqəti artırmışdır. Dağlıq Qarabağda baş verən cinayətlər, o sıradan işğal olunmuş ərazilərdən narkotik maddələrin keçirilməsi və ondan istifadə olunması halları indi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Qeyd olunmalıdır ki, son illərdə narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması sahəsində narkomaniyaya meyilli şəxslərə qarşı Qəbələ Rayon Polis Şöbəsinin əməkdaşları mübarizəni genişləndirməklə müvəffəqiyyət qazana bilirlər. Cari ilin müvafiq dövrü ərzində polis əməkdaşları tərəfindən bu sahədə 7 narkotik faktı qeydə alınmışdır. Bunlardan 4-ü satışla bağlı olmuşdur. Qanunsuz dövriyyədən 403 qrama yaxın marixuana və 4 qram heroin çıxarılmışdır.

Bütün bunlardan əlavə rayon polis şöbəsinin əməkdaşları "Xaşxaş 2016" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktiki tədbirlərin keçirilməsinə dair planın icrasını uğurla davam etdirir və rayon ərazisində tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiya edilməsi və yabanı halda yayılması hallarının qarşısını almaq üçün zəruri tədbirlər həyata keçirirlər.

**Nadir MƏMMƏDOV,**
**Qəbələ Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki.**

**(Əvvəli 2-ci səhifədə).**

# Azərbaycan—Odlar ölkəsi sürət zirvəsində

## Bakıda keçirilən daha bir dünya səviyyəli beynəlxalq tədbir Azərbaycanı öz tarixinə yazdı

Tanışlıqdan sonra Azərbaycan Dövlət Uşaq Filarmoniyasının 40 nəfərdən ibarət kollektivi tərəfindən Dövlət Himnimiz ifa olunmuş, final mərhələsinə start verilmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən Avropa Qran-prisinin qalibi "Mercedes" komandasının pilotu Niko Rosberq oldu. Almaniyalı pilot məsafəni 1 saat 32 dəqiqə 52 saniyəyə qət etmiş, ikinci yerə "Ferrari" komandasının almaniyalı pilotu Sebastian Fettel çıxdı. III yerdə isə "Force İndia" komandasının meksikalı pilotu Serxio Perez qərarlaşdı.

Qeyd edək ki, bu, Niko Rosberqin mövsümdə 5-ci karyerasında 19-cu qələbəsidir. Hesabına 25 xal əlavə edən Niko Rosberq ümumi sıralamada liderlik mövqeyini bir qədər də möhkəmləndirdi. Hazırda onun hesabında 141 xal var. Niko Rosberqin komanda yoldaşı, britaniyalı Luis Hamilton 117 xalla ikinci yerdə qərarlaşıb. Ümumi hesabla üçlüyü 96 xalla Sebastian Fettel tamamladı.

Niko Rosberqə kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva isə mühəndislər kubokunu mersedes komandasının nümayəndəsinə təqdim etdi.

Kuboklar ikinci yerin sahibi Sebastian Fettellə gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan Serxio Peresə isə Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov tərəfindən təqdim edildi.

"Formula-1" Qran-pri yarışlarının Bakıdan sonrakı növbəti dayanacaqları 1-3 iyulda Avstriya (Osterayxrinq), 8-10 iyul Böyük Britaniya (Silverstoun), 22-24 iyul Macarıstan (Hunqarorinq), 29-31 iyul Almaniya (Hokkenhaym), 26-28 avqust Belçika (Spa Frakorşamps), 2-4 sentyabr İtaliya (Montsa), 16-18 sentyabr Sinqapur (Marina bey), 30 sentyabr-2 oktyabr Malayziya (Kuala Lampur), 21-23 oktyabr ABŞ (OSTİN), 28 oktyabr Meksika (Mexiko), 11-13 noyabr Braziliya (İnterlagos) və 25-27 noyabrda Əbu Dabidə (Jas Marin) olacaqdır.

Gələn il Azərbaycan daha bir mötəbər tədbirə ev sahibliyi edəcək. Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bütün bunlar ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.

Qəbələ oxucularına daha bir xoş xəbər vermək istərdik ki, yaxın zamanlarda növbəti VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı musiqisevərlərimizlə görüşə gələcəkdir.

**Nadir ATAKİŞİYEV.**